TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# 2024-cü ilin IV rübü üzrə Elektron Bülleten

# Mündəricat


**Təhsildə Keyfiyyət Təminatı Agentliyinin fəaliyyət istiqamətləri üzrə yenilikləri**

3-4 - Xarici kvalifikasiyaların tanınması

5 - Qeyri-formal və informal təhsilin tanınması

6-7 - Məktəbəqədər təhsil sahəsinin inkişafına yönəlmiş fəaliyyətlər

8-9 - Media ilə iş və vətəndaş məmnunluğu

**Təhsil müəssisələrinin akkreditasiyası istiqamətində təcrübə qazanmaq məqsədilə müxtəlif yerli və xarici tədbirlərdə (təlimlərdə) iştirak edən Agentlik əməkdaşlarının təəssüratı**

10
- Ali təhsildə keyfiyyət təminatı: Türkiyə təcrübəsi
- Brüsseldə keçirilən SEQA-ESG 2 seminarı: Maraqlı tərəflərin cəlb olunması üzrə təcrübə və tövsiyələr

11
- TKTA ENQA-nın tamhüquqlu üzvü olan agentliklərin təcrübələrindən yararlanır
- Keyfiyyət təminatı davamlı inkişafa söykənir

12
- Akkreditasiya qiymətləndirilməsi prosesi zamanı müşahidələr
- Daxili keyfiyyət təminatı sistemi üzrə beynəlxalq yanaşmaların araşdırılmasında təcrübə mübadiləsinin əhəmiyyəti

**Ekspert rəyi**

13 - İnstitusional akkreditasiya qiymətləndirilməsi ilə əlaqədar ekspert müşahidəsi

## Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) fəaliyyət istiqamətləri üzrə yenilikləri

### Xarici kvalifikasiyaların tanınması

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na əsasən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində fəaliyyət göstərən TKTA tərəfindən həyata keçirilir. Sözügedən qaydaların 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquqşünaslıq ixtisasları (68 ixtisas) üzrə ərizəçilərin TKTA-nın sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçməsi (keçid balını toplaması) tələb olunur.

6 oktyabr 2024-cü il tarixində DİM tərəfindən rəqəmsal formatda keçirilən növbəti imtahanda iştirak üçün 305 nəfər müraciətçi qeydiyyatdan keçib və onlardan 271-i imtahanda iştirak edib. 18 ixtisas üzrə müvəffəqiyyət göstəricisi 54% (148 nəfər) təşkil edib. İxtisaslar üzrə iştirak edən və keçid balını toplayan namizədlərin statistikasına nəzər saldıqda, müraciət sayına uyğun olaraq ən çox imtina cavabı "Hüquqşünaslıq" ixtisası üzrə olub. "Hüquqşünaslıq" ixtisası üzrə imtahanda iştirak edən 106 nəfərdən yalnız 35-i uğurlu nəticə əldə edib. Uğursuz nəticə göstərən diplom sahibləri əsasən 2 ölkənin ali təhsil müəssisələrinin (ATM) məzunlarıdır. "Hüquqşünaslıq" ixtisası üzrə Rusiya Federasiyasının ATM-lərindən əldə edilmiş kvalifikasiyalarla peşə tanınması üçün müraciət edən namizədlərin 70%-i, Ukrayna ATM-lərindən məzun olanların isə 63%-i müvafiq imtahanda müvəffəqiyyət qazana bilməyib.

271 Ərizəçi → 18 ixtisas üzrə 148 nəfər müvəffəqiyyət əldə edib

"Hüquqşünaslıq" ixtisası üzrə peşə tanınması imtahanında ən uğursuz nəticə göstərən kvalifikasiya sahiblərinin təhsil aldığı ölkələr




Eyni zamanda, "Hüquqşünaslıq" ixtisası üzrə peşə tanınması imtahanında ən uğursuz nəticə göstərən kvalifikasiya sahiblərinin məzun olduqları ATM-lərin siyahısı aşağıda göstərilib:

| Rusiya Federasiyası | Ukrayna |
|---|---|
| Cəzaların İcrası Federal Xidmətinin Hüquq və İdarəetmə Akademiyası | Xarkov Milli Daxili İşlər Universiteti |
| Rusiya Federasiyası Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Xidməti Akademiyası | Regionlararası Heyətin İdarəolunması Akademiyası |
| Tolyatti Dövlət Universiteti | T. Şevçenko adına Kiyev Milli Universiteti |
| Dağıstan Dövlət Universiteti | Y. Mudrıy adına Milli Hüquq Universiteti |
| Ümumrusiya Dövlət Ədliyyə Universiteti | Milli Universitet "Odessa Hüquq Akademiyası" |
| Saratov Dövlət Hüquq Akademiyası | |

Əlavə olaraq, yuxarıda qeyd olunan qaydaların 4-cü maddəsinin 4.1.1-ci yarımbəndi (müvafiq kvalifikasiyaya dair sənədin əldə olunduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması) tanınma üçün başlıca şərtlərdəndir. Buna müvafiq olaraq, TKTA-ya edilən müraciətlərin təhlili nəticəsində yerli akkreditasiyadan keçməyən və müvafiq dövlət lisenziyası olmadığı üçün ali təhsil sənədlərinə imtina verilmiş ATM-lərin siyahısı 23.11.2024-cü il tarixində yenilənərək TKTA-nın rəsmi internet səhifəsində yayımlanıb (https://tkta.edu.az/p/diplomlari-taninmayan-universitetlerin-siyahisi). Vətəndaşlarımızı sözügedən siyahını mütəmadi olaraq nəzərdən keçirməyə çağırırıq.

Eyni zamanda, xaricdə təhsil almaq istəyən vətəndaşların maarifləndirilməsi məqsədilə TKTA-nın təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində və regionlarda fəaliyyət göstərən ATM-lərin nümayəndələrinin iştirakı ilə Mingəçevir Dövlət Universitetində tədbirlər keçirilib. Hər iki tədbir çərçivəsində Xarici kvalifikasiyaların tanınması şöbəsinin (XKTŞ) müdiri Elnur Xəlilov xarici kvalifikasiyaların tanınması mövzusunda çıxış edərək, xaricdə təhsil almaq istəyən şəxslərin diqqət etməli olduqları əsas məqamlarla bağlı ətraflı məlumat verib.

Sözügedən tədbirlərdə seçilən ixtisasın Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş orta ixtisas, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyəsi üzrə ixtisasların təsnifatlarında yer alması, təhsil formasının ənənəvi təlim metodlarına əsaslanan formal qaydada əyani və qiyabi təhsilalma formasında olması, seçilmiş ATM-in fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasına malik olması, hər tədris ilinə münasibətdə ərizəçinin normativ tədris müddətinin ən az yarısı qədər təhsil aldığı ölkənin ərazisində olması (tibb və səhiyyə ixtisasları üzrə təhsilin normativ müddətində təhsil aldığı ölkənin ərazisində olması) və tədris müddətinin ən az üçdə ikisində ənənəvi təlim metodlarına əsaslanan formal qaydada iştirak kimi başlıca tələblər izah edilib.



Eyni zamanda, bu istiqamət üzrə xarici təcrübənin öyrənilməsi məqsədilə XKTŞ-nin müdiri Elnur Xəlilov və adıçəkilən şöbənin əməkdaşı Nigar Cəniyeva 16-19 dekabr 2024-cü il tarixlərində Türkiyə Respublikasına səfər ediblər.

Səfər çərçivəsində Türkiyə Respublikasının Milli Təhsil Nazirliyinin Təlim və Metodologiya Şurasının xaricdə əldə edilmiş tam orta təhsil attestatlarının tanınmasından məsul Təhsil siyasəti şöbəsinin müdiri Mustafa Kılıç və tanınma şöbəsinin əməkdaşı Dinçer Koçer ilə görüş keçirilib. Görüş zamanı tam orta təhsil haqqında attestatların tanınması üçün müraciətlərin hansı şəkildə aparıldığı, həmin sənədlərin həqiqiliyinin hansı yollarla təsdiq edildiyi, leqallaşdırmanın hansı formalarının qəbul edildiyi, ekspertizanın mərhələləri və digər müvafiq məsələlər ətrafında müzakirələr aparılıb, eyni zamanda Türkiyə Respublikasının bu sahədəki təcrübəsi yaxından öyrənilib.



Daha sonra Türkiyə Respublikası Ali Təhsil Şurasının (YÖK) tabeliyində fəaliyyət göstərən Kvalifikasiyaların tanınması və ekvivalentliyin müəyyən edilməsi şöbəsinin müdiri Ayşə İnan və şöbənin mütəxəssisləri ilə görüş keçirilib.

Sözügedən görüşdə xarici kvalifikasiyaların tanınması, tələb olunan sənədlər və onların həqiqiliyinin yoxlanılması, ixtisas ekvivalentliyinin müəyyən edilməsi, tənzimlənən ixtisaslarla bağlı imtahanların təşkili və digər məsələlər müzakirə olunaraq, YÖK-ün təcrübəsi ilə yaxından tanışlıq imkanı əldə edilib. Belə ki, xaricdə təhsil almış müraciətçilərin dil biliklərinin yoxlanılması məqsədilə beynəlxalq dil imtahanlarının nəticələrinin tələb olunduğu, tezissiz magistratura proqramlarından məzun olmuş şəxslərin doktorantura pilləsində təhsil ala bilmələri üçün tezisli magistratura pilləsindən məzun olmalarının zəruri olduğu və s. yeni təcrübələrlə tanış olunub.

## Qeyri-formal və informal təhsilin tanınması (QFİTT)

TKTA peşə təhsili üzrə qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması prosesini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq edilmiş “Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası”na əsasən həyata keçirir.










QFİTT istiqamətində əvvəlki illərə nisbətən 2024-cü il üzrə nəzəri imtahanda qeyri-məqbul nəticə göstərənlərin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunub. Belə ki, cari il üzrə keçirilən nəzəri imtahanlarda 248 nəfər iştirak edib, onlardan 199 nəfər uğurlu nəticə əldə etsə də, 49 nəfər (nəzəri imtahana cəlb olunanların ümumi sayının 20 faizi) qeyri-məqbul nəticə göstərib.

QFİTT üzrə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində 16-19 dekabr 2024-cü il tarixlərində Türkiyə Respublikasının Ankara şəhərində Peşə Kvalifikasiyaları Qurumunun (Mesleki Yeterlilik Kurumu (MYK)) təcrübəsi ilə tanış olmaq məqsədi ilə TKTA əməkdaşları bir sıra görüşlər keçirib, qurumlar arasında tərəfdaşlıq müzakirə edilib. Sözügedən görüşdə Türkiyə Respublikası üzrə təqribən 3 milyon peşə ixtisasını təsdiq edən sənədin müraciətçilərə təqdim olunduğu, bunun 2,4 milyona yaxınının icbarilik tələb edən ixtisasların payına düşdüyü vurğulanıb.




Əlavə olaraq, xüsusilə təhlükəsizlik qaydalarına riayət olunması vacib olan və müraciət saylarının daha çox olduğu sahələr üzrə icbariliyin tətbiqinin əmək bazarının stimullaşdırılmasında əhəmiyyətli rol oynadığı vurğulanıb.

Eyni zamanda, “dayəlik” və “baytarlıq” ixtisasları üzrə müvafiq peşə sənədinin verilməsinin MYK-nin səlahiyyəti çərçivəsində olmaması xüsusi qeyd olunub. Bununla yanaşı, Səlahiyyətli Sertifikatlaşdırma (Yetkilendirilmiş Belgelendirme Kuruluşu) təşkilatının iş prinsipi, onların MYK standartlarına uyğunlaşdırılmasının zəruriliyi qeyd olunub və oxşar sistemin peşə məktəbləri ilə inteqrasiya çərçivəsində tətbiq olunması yolları müzakirə edilib.

TKTA-nın fəaliyyət istiqamətlərindən biri də təhsil müəssisələrində, o cümlədən məktəbəqədər təhsil müəssisələrində (MTM) daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsidir. Məktəbəqədər təhsil erkən yaş dövrlərində olan uşaqları əhatə edir ki, bu da MTM-in uşaqların inkişafına necə töhfə verdiyi və sözügedən təhsil müəssislərində keyfiyyətin monitorinqi məsələsini ön plana çıxarır.

2022-2026-cı illərin sosial-iqtisadi inkişaf Strategiyasına əsasən, 2024-cü ildə MTM-lərdə keyfiyyət təminatı istiqamətində görülən işlər:

**2024**

- 100 MTM-də monitorinq
- 50 müəssisə rəhbəri üçün təlim
- 4000 respondentlə sorğu



2024-cü ildə TKTA tərəfindən keçirilən monitorinqlər və təlimlər MTM-in rəhbərlərinə müəssisənin güclü və zəif tərəflərini aşkar etməyə və onların özünüqiymətləndirmə bacarıqlarını inkişaf etdirməyə hədəflənib. Eyni zamanda, monitorinqlər nəticəsində müəssisə rəhbərləri qarşılıqlı təcrübə əldə etmək imkanına malik olublar. Valideynlərlə keçirilmiş məmnunluq sorğusu müəssisə-valideyn əməkdaşlığına təkan verib, sorğular nəticəsində müəssisənin inkişafına dair fəaliyyətlər gələcək tədbirlər planına əlavə olunub.

Ümumilikdə, il ərzində MTM-lərdə təşkil edilən monitorinqlər nəticəsində toplanan məlumatların ETN-in aparatına və aidiyyəti tabe qurumlarına göndərilməsindəki məqsəd bu sahədə siyasətin formalaşdırılması, təhsil müəssisələrinin ehtiyaclarının daha dəqiq müəyyən edilməsi və resursların daha səmərəli bölüşdürülməsidir.



Sözügedən təhsil səviyyəsi üzrə cari il ərzində görülən işlərin müzakirəsi və eyni zamanda beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə ETN və TKTA-nın təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (MÜTDA) və Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) tərəfdaşlığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış" adlı II beynəlxalq konfrans keçirilib. Tədbirdə ETN, TKTA, MÜTDA və ARTİ-nin rəsmi şəxsləri, ali təhsil müəssisələrinin nümayəndələri, eyni zamanda xarici ölkələrdən olan mütəxəssislər iştirak edib.



Elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda təsbit olunmuş məktəbəqədər təhsilin nəticəyönümlü və ölçüləbilən hədəfləri barədə danışıb. Əhatəliliyin təmin olunması məqsədi ilə son illər həyata keçirilən məktəbəhazırlıq qruplarının əhəmiyyətini vurğulayıb və 1 illik proqramda iştirakın məktəbə daha hazırlıqlı başlamağa əhəmiyyətli şəkildə müsbət təsir etdiyini qeyd edib.



Sözügedən tədbirdə TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov 1-5 yaşlı uşaqların layiqli vətəndaş kimi formalaşmasında və cəmiyyətə əlavə dəyər qatmasında keyfiyyətli məktəbəqədər təhsilin önəmindən söhbət açaraq, “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən, məktəbəqədər təhsilə cəlb edilmiş 1-5 yaşlıların payının 50%-ə çatdırılmasının hədəf kimi qoyulduğunu vurğulayıb.

Sözügedən konfransda iştirak edən xarici qonaqlar çıxışları zamanı öz ölkələri ilə bağlı maraqlı məqamlara toxunublar. Finlandiyadan olan mütəxəssis Qaye Amus Finlandiyanın məktəbəqədər təhsil təcrübəsində açıq hava oyunlarının uşaqlarda bacarıqların, eləcədə onlarda təxəyyülün inkişafına təsir etdiyini xüsusi vurğulayıb.








Konfrans çərçivəsində Böyük Britaniyanın “Kindred” Erkən İnkişaf Fondunun direktoru və “Ofsted”-in İdarə Heyətinin üzvü olan Felisiti Gelispi TKTA-nın əməkdaşına müsahibə verib. Müsahibə zamanı Gelispi insan həyatının ilk üç ilinin, onun gələcək həyat və fəaliyyətində bacarıqlarının formalaşması üçün çox vacib olduğunu vurğulayıb. O qeyd edib ki, uşağın 22 aylıq inkişafı 26 yaşındakı təhsil göstəricisini müəyyən edir.



Tədbirdə çıxış edən yerli ekspertlər də maraqlı fikirlərlə çıxış edib. Cənubi Florida Universitetinin ”Təhsilin idarə olunması” ixtisası üzrə doktorantı Lalə Orucova məktəbəqədər təhsil sisteminin fəaliyyətini və çərçivəsini formalaşdıran milli və ya regional səviyyədəki təhsil siyasətlərinin sosial-siyasi faktorları əhatə etdiyini qeyd edib. Vaşinqton Universitetinin müəllimi Aytəkin Hüseynli uşaqların inkişafı və təhsili üçün məktəbəqədər təhsildə idarəetmənin əhəmiyyətindən danışaraq, uşaqların davranışlarını idarə etməklə onların gələcək həyatlarında bacarıqlarını formalaşdırmaq imkanı yarandığını vurğulayıb. 23 saylı körpələr evi-uşaq bağçasının tərbiyəçi müəllimi Nərmin Məhərrəmova son iki il ərzində sözügedən MTM-də keyfiyyətli təhsilin təmin olunmasında baş vermiş inkişafdan danışıb və valideynlərlə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb.






## Media ilə iş və vətəndaş məmnunluğu

TKTA-nın İnformasiya və insan resursları şöbəsinin (İİR) fəaliyyət istiqamətləri üzrə əsas məqsədləri media nümayəndələri ilə daha sıx əlaqələrin qurulması, vətəndaş məmnuniyyətinin artırılması, Agentliyin işçi heyətinin fəaliyyətinin effektiv şəkildə təşkil edilməsi və TKTA-nın sənədləşdirmə və sənədlərlə işin təşkili məsələlərinin lazımi qaydada həyata keçirilməsindən ibarətdir.

### Media ilə iş

Ötən ilin 25 dekabr tarixində TKTA-nın missiyasının geniş auditoriyaya çatdırılması və 2024-cü ildə görülən işlər, həmçinin 2025-ci ildə nəzərdə tutulan fəaliyyətə dair TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun media nümayəndələri üçün illik brifinq-hesabat görüşü keçirilib. 20-dən çox media nümayəndəsinin iştirak etdiyi brifinqdə TKTA tərəfindən 2024-cü il ərzində ümumilikdə 11 ATM-də institusional akkreditasiyanın, 14 "ibtidai sinif müəllimliyi" ixtisası üzrə proqram akkreditasiyasının, 4 ATM-də ikili diplom proqramı üzrə akkreditasiya qiymətləndirilməsinin həyata keçirildiyi, eyni zamanda ölkə tarixində ilk dəfə olaraq peşə təhsili müəssisələrində (PTM) də akkreditasiya qiymətləndirilməsi prosesinə başlanıldığı qeyd edilib.






Tural Əhmədov, həmçinin 2024-cü ildə 6013 müraciət üzrə xaricdə əldə olunan kvalifikasiyanın ekspertizasının və qeyri-formal və informal təhsil sahəsində tanınmanın həyata keçirildiyini bildirib. Əlavə olaraq, 4891 müraciət üzrə müsbət, 1122 müraciət üzrə mənfi rəy verildiyi qeyd edilib. İdarə Heyətinin sədri 2025-ci ildə isə 11 ATM-in və 2 PTM-in institusional akkreditasiyası, eyni zamanda məktəbəqədər təhsil üzrə kadr hazırlığı aparan müəssisələr üzrə proqram akkreditasiyasının keçirilməsi, 2024-cü təqvim ili üzrə akkreditasiyadan keçməyən ATM-lərdə təkrar akkreditasiya qiymətləndirilməsinin həyata keçirilməsi, orta ixtisas təhsili müəssisələri üçün pilot akkreditasiya qiymətləndirilməsinin həyata keçirilməsi, elektron akkreditasiya sistemi üzərindən akkreditasiya qiymətləndirilməsinin təşkil edilməsi, həmçinin 100 MTM-də keyfiyyət üzrə monitorinqlərin keçirilməsinin planlaşdırıldığını vurğulayıb. Bundan başqa, Tural Əhmədov növbəti təqvim ilində QFİTT istiqamətində 5 yeni peşə ixtisasının əlavə olunacağını da vurğulayıb (https://www.youtube.com/watch?v=CO0ibPl1b9g).




Qeyd edilən müddət ərzində şöbə tərəfindən müxtəlif media qurumları ilə əməkdaşlıq çərçivəsində TKTA İdarə Heyətinin sədri Tural Əhmədov ARB telekanalında yayımlanan “Qanun Qayda” və İctimai televiziyada efirə gedən “Sabahın xeyir, Azərbaycan”, həmçinin İİR şöbəsinin müdiri Rövşən Nəzərov İTV telekanalında yayımlanan “Xəbərimiz Var" verilişlərində canlı olaraq iştirak ediblər (https://www.youtube.com/watch?v=ax2VWshObf4), (https://www.youtube.com/watch?v=oaXW_dIb964),

( https://www.youtube.com/watch?v=UPKI1zJ1-yQ&t=91s).

Onlar müsahibələrində xarici kvalifikasiyaların tanınması qaydaları, autentik (həqiqi) olmayan diplomlar və şəhadətnamələr, akkreditasiya prosesi də daxil olmaqla, ümumilikdə Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı bir sıra məsələlər barəsində ictimaiyyəti məlumatlandırıblar.







## Vətəndaş məmnuniyyəti

### Vətəndaş qəbulunun təşkili

Vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.




Vətəndaşlar tərəfindən birbaşa olaraq, həmçinin ETN vasitəsilə Agentliyə yönləndirilən müraciətlər və sosial şəbəkələrdən daxil olan sorğular araşdırılaraq müvafiq qaydada cavablandırılıb.

**2024-cü ilin fevral ayından etibarən 146-8 çağrı mərkəzinin fəaliyyəti bərpa edilib.**

Çağrı Mərkəzi bir əməkdaşla fəaliyyətə başlayıb. Vətəndaş müraciətlərinin çoxluğu nəzərə alınaraq, noyabr ayından etibarən ikinci əməkdaş da bu prosesə cəlb edilib. Nəticədə əvvəlki aylarla müqayisədə daxil olan vətəndaş müraciətləri daha çevik cavablandırılıb və bu, xidmət səviyyəsinin yüksəlməsi, həmçinin vətəndaş məmnuniyyətinin artması ilə müşayiət olunub.

Belə ki, son rüb ərzində buraxılmış zənglərin sayı 2.2 dəfə, operatorla əlaqəli gözləmə müddəti isə 47% azalaraq, 3 dəqiqə 16 saniyədən 1 dəqiqə 31 saniyəyə qədər enib. Ümumilikdə, xidmət səviyyəsi rübün əvvəli ilə müqayisədə 11 % artımla, 69 %-dən 80 %-ə çatdırılıb .

## Təhsil müəssisələrinin akkreditasiyası istiqamətində təcrübə qazanmaq məqsədilə müxtəlif yerli və xarici tədbirlərdə iştirak edən Agentlik əməkdaşlarının təəssüratı

### Ali təhsildə keyfiyyət təminatı: Türkiyə təcrübəsi






Agentliyin Akkreditasiya və lisenziya şöbəsinin müdiri Samir Quliyevin 16-18 dekabr 2024-cü il tarixlərində Türkiyə Respublikasının Ali Təhsil Keyfiyyət Şurasında (YÖKAK) keçirdiyi görüşlərdə iki qurum arasında əməkdaşlıq perspektivləri ətraflı müzakirə edilib. Ali Təhsilin Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyanın (ENQA) üzvü olan YÖKAK-ın Türkiyə daxilindəki və beynəlmiləlləşmə istiqamətindəki fəaliyyətlərinin öyrənilməsi, hər iki qurum tərəfindən təşkil olunan akkreditasiya prosesində qarşılıqlı əməkdaşlığın müzakirə edilməsi əhəmiyyət kəsb edən məqamlardan olub. YÖKAK İdarə Heyəti və əməkdaşları ilə görüşlərdə YÖKAK-ın ENQA-ya üzvlük prosesi, elektron akkreditasiya sistemi, tematik təhlil prosesi, daxili keyfiyyət təminatı siyasəti, akkreditasiya meyarlarının təkmilləşdirilməsi, ekspert bankının formalaşması, təlimlərin effektiv təşkili və maraqlı tərəflərlə iş mövzuları ətrafında fikir mübadiləsi aparılıb. Digər keyfiyyət təminatı agentlikləri, eləcə də ENQA tərəfindən təqdir edilən YÖKAK-ın tələbələrlə iş prinsipinin ve mexanizminin öyrənilməsi təcrübəsi TKTA-nın bu istiqamətdəki əməli fəaliyyətlərinə də mühüm töhfə verəcəkdir.

**Samir Quliyev**
Akkreditasiya və lisenziya şöbəsinin müdiri

### Brüsseldə keçirilən SEQA-ESG 2 seminarı: Maraqlı tərəflərin cəlb olunması üzrə təcrübə və tövsiyələr



SEQA-ESG 2 layihəsi Azərbaycan, Bosniya və Herseqovina, Ukrayna və Serbiyanın keyfiyyət təminatı agentliklərinin ENQA-nın müşahidəçi üzv statusundan tamhüquqlu üzv olmaq istiqamətində aparılan fəaliyyətlərə dəstək məqsədilə 2022-ci ilin dekabr ayından etibarən 3 il müddətində həyata keçirilir.

Belçikanın paytaxtı Brüssel şəhərində ENQA tərəfindən təşkil edilən "SEQA-ESG 2 Maraqlı tərəflərin cəlb olunması ilə bağlı ekspertlərin qarşılıqlı öyrənməsi" adlı beynəlxalq seminarda iştirak edən TKTA-nın Təlim və metodologiya şöbəsinin əməkdaşları Vəfadar Rizvanlı və Bəyim Abdulla seminardan sonra öz təəssüratlarını bölüşüblər.

"Maraqlı tərəflərin istər agentliklərin idarəetmə prosesində, istərsə də xarici keyfiyyət təminatı fəaliyyətlərində yer alması Ali təhsil üzrə Avropa standartları və bələdçi sənədinin (ESG) əsas tələblərindən biridir. Bu tələbin TKTA-nın fəaliyyətində nəzərə alınması istiqamətində bir çox işlər görülüb və müvafiq siyasət sənədi hazırlanıb. Avropa keyfiyyət təminatı agentliklərinin yanaşmasının ətraflı öyrənilməsi və ən yaxşı təcrübələrin seçilərək tətbiq olunması bu sahədə aparılan işlərin təkmilləşdirilməsi üçün olduqca vacibdir. Bu baxımdan, Brüssel şəhərində keçirilən seminar bizim üçün olduqca faydalı hesab edilə bilər. Tədbirdə məruzəçi qismində çıxış edən Litva, Belçika, Böyük Britaniya, Polşa və Çexiyanın keyfiyyət təminatı agentliklərinin hər birinin özünəməxsus təcrübəsi əsasında təqdim etdiyi nümunələr bizim üçün dəyərli bir öyrənmə mənbəyi oldu.

Litva təcrübəsində yer alan, təhsilverənlərin ekspert bazasının daim zənginləşdirilməsi, onların xarici keyfiyyət təminatına cəlb olunması mexanizmi, habelə müxtəlif platformalar vasitəsilə tələbələr arasında aktiv təcrübə mübadiləsinin baş tutması imkanları ilə bağlı TKTA-nın da fəaliyyətində tətbiq oluna biləcək maraqlı nüanslar təqdim olundu. Digər tərəfdən, Belçika nümunəsində maraqlı tərəflərin idarəetmə prosesinə həddindən artıq cəlb olunması səbəbi ilə qərarvermədə çevikliyin olmaması ilə bağlı vurğulandı ki, maraqlı tərəflərin idarəetmə prosesinə balanslı şəkildə cəlb edilməsi səmərəli qərarvermə və operativlik üçün vacibdir."

**Vəfadar Rizvanlı, Bəyim Abdulla**
Təlim və metodologiya şöbəsinin baş məsləhətçisi və böyük məsləhətçisi

## TKTA Latviyanın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (AIKA) timsalında ENQA-nın tamhüquqlu üzvü olan agentliklərin təcrübələrindən yararlanır

2024-cü ilin son rübündə TKTA əməkdaşları Belçika, Slovakiya, Sloveniya, Rumıniya kimi bir sıra xarici ölkələrə səfər edib və bu ölkələrin keyfiyyət təminatı agentliklərinin qabaqcıl təcrübələri ilə tanış olublar. Agentliyin Akkreditasiya və lisenziya şöbəsinin məsləhətçisi Mehparə Yusifli 9-13 dekabr 2024-cü il tarixlərində Latviyaya səfəri çərçivəsində həmin ölkənin həmkar qurumu olan AIKA-nın fəaliyyəti ilə yaxından tanış olub. AIKA 2024-cü ildə ENQA tərəfindən növbəti 5 il müddətinə üzvlüyü təsdiqlənmiş nüfuzlu bir qurumdur. AIKA-nın müstəqil fəaliyyət prinsipləri şəffaflıq və hesabatlılıq üzərində qurulub.



Akkreditasiya Şurasının seçimi əsasında fəaliyyət göstərən agentlik qərarların və fəaliyyətlərin ictimaiyyət üçün açıq olmasını təmin edir. Eyni zamanda, AİKA şəffaflığı artırmaq və ali təhsil sahəsində inkişafı dəstəkləmək üçün tematik təhlillər aparır, maliyyə mənbələri ilə bağlı məlumatları ictimaiyyətlə paylaşır. AIKA tərəfindən təhsil müəssisələri ilə sıx əməkdaşlıq qurulur, mütəmadi aparılan sorğular vasitəsilə məlumatlar toplanır və davamlı təkmilləşmə həyata keçirilir. ESG standartlarına uyğunluq məqsədilə isə həm daxili keyfiyyət təminatı sistemləri qurulur, həm də xarici qiymətləndirmələr təşkil edilir.

TKTA şəffaflığı artırmaq məqsədilə tematik təhlillər aparır və ictimaiyyətlə əlaqə mexanizmlərini davamlı olaraq inkişaf etdirir. Hər iki qurumun ali təhsil müəssisələri ilə əməkdaşlıq və təkmilləşmə yönümlü yanaşması, onların beynəlxalq təcrübə mübadiləsində nümunəvi bir rol oynamasına şərait yaradır. Bu yanaşmalar ali təhsildə keyfiyyət mədəniyyətinin gücləndirilməsinə əhəmiyyətli töhfə verir və beynəlxalq səviyyədə onların nüfuzunu artırır.

**Mehparə Yusifli**
Akkreditasiya və lisenziya şöbəsinin məsləhətçisi

## Keyfiyyət təminatı davamlı inkişafa söykənir

Son illər TKTA-nın əməli dəstəyi ilə ölkədə fəaliyyət göstərən təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin gücləndirilməsi üçün əsaslı tədbirlər görülüb. Belə ki, 2022-ci ildə Akkreditasiya Meyarlarının yeni redaksiyada təsdiqlənməsi təhsil ocaqlarında keyfiyyətə məsul strukturların təkmilləşdirilməsi, keyfiyyət təminatında qabaqcıl təcrübələri öyrənməklə yeni mexanizmlərin tətbiqi, qərarvermədə strateji inkişafa söykənən yanaşmanın təbliğ edilməsi kimi bir sıra inkişafyönümlü addımlar atılıb.

Təcrübə göstərir ki, keyfiyyət təminatı davamlı inkişafı tələb edir. Qeyd etmək yerinə düşər ki, hazırda Avropa Ali Təhsil Məkanında geniş tətbiq edilən ESG qaydalarının təkmilləşdirilməsi məqsədilə müzakirələr, əsasən, beynəlmiləlləşmə, rəqəmsallaşma və davamlı inkişaf istiqamətlərində davam edir. 2027-ci ildə təsdiqi gözlənilən ESG sənədinin yenilənməsi üçün atılan addımlar TKTA tərəfindən də izlənilir.



Son zamanlar bu istiqamətdə nəzərəçarpan səviyyədə irəliləyiş nümayiş etdirən qurumlardan biri də Slovakiyanın Ali Təhsil üzrə Akkreditasiya Agentliyidir (SAAHE). Bu təşkilatın fəaliyyəti və təcrübəsi ilə yaxından tanış olmaq məqsədilə Akkreditasiya və lisenziya şöbəsinin baş məsləhətçisi Faina Qaçabəyova 3-5 dekabr 2024-cü il tarixlərində Slovakiyaya səfər edib. SAAHE 2024-cü ildən ENQA-nın tamhüquqlu üzvü seçilməklə, fəaliyyətlərinin ESG sənədinə uyğun tənzimlənməsini təsbit etmiş və bu istiqamətdə beynəlxalq keyfiyyət standartlarına uyğun təcrübələrin tətbiqini genişləndirib.

SAAHE-dəki tərəfdaşlarla akkreditasiya qiymətləndirilməsində hər iki qurumun rolu, Azərbaycan və Slovakiyada ali təhsilin xarici keyfiyyət təminatı ilə bağlı qanunvericilik tələbləri, milli qiymətləndirmə meyarları, eləcə də ESG sənədindən irəli gələn tələblərə uyğun fəaliyyətlərin təşkili, daxili keyfiyyət təminatında tətbiq edilən metodologiya və yanaşmalar kimi mövzular ətrafında müzakirələr aparılıb. TKTA-nın təşəbbüsü ilə həyata keçirilmiş bu mübadilə iki qurum arasında əməkdaşlığın gücləndirilməsi və beynəlxalq təcrübələrin paylaşılması baxımından mühüm rol oynayır.

**Faina Qaçabəyova**
Akkreditasiya və lisenziya şöbəsinin baş məsləhətçisi

## Akkreditasiya qiymətləndirilməsi prosesi zamanı müşahidələr

Təhsil müəssisələrində keyfiyyət təminatı mədəniyyətinin formalaşması Akkreditasiya Komissiyasının (AK) fəaliyyəti nəticəsində baş verir. AK təhsil müəssisələrinin fəaliyyətini qiymətləndirən və onların Akkreditasiya Meyarlarına uyğunluğunu təsdiqləyən müstəqil ekspertlər qrupudur. 2024-cü il ərzində TKTA tərəfindən hər bir akkreditasiya növü üzrə ümumilikdə 29 Komissiya formalaşdırılıb. AK-nin tərkibi akkreditasiya qiymətləndirilməsi növündən asılı olaraq dəyişir. TKTA institusional akkreditasiya qiymətləndirilməsi prosesinə AK-nin üzvü kimi yerli təhsil mütəxəssisləri ilə yanaşı, beynəlxalq ekspert, işəgötürən və tələbələri də maraqlı tərəf kimi prosesə cəlb edir.

Qeyd etmək lazımdır ki, TKTA tərəfindən təyin olunan əlaqələndirici şəxslər (koordinatorlar) AK-nin işini təşkil etməklə yanaşı, akkreditasiya qiymətləndirilməsi ilə bağlı müəyyən edilmiş zaman kəsiyində baş verən bütün prosesi də müşahidə edir. Koordinatorların müşahidələrinə əsasən komissiyaların yuxarıda qeyd edilən tərkiblə fəaliyyəti təhsil müəssisələrində işəgötürənlərlə birgə çalışmaq və tələbəyönümlü tədrisi təşkil etmək kimi keyfiyyət təminatı mədəniyyətinin formalaşmasına xidmət edir.



Beynəlxalq ekspertlər yerli ATM-lərdə tədrisi təşkil olunan proqramlarda əks olunan peşə səriştələrinin beynəlxalq təhsil standartlarına uyğunluğunu müəyyən edərək, beynəlmiləlləşmə prosesinə töhfə verir. Bununla yanaşı işəgötürənlər və ya digər AK-nin üzvləri qiymətləndirmə prosesində şahid olduqları maraqlı təcrübələri öz çalışdıqları müəssisələrdə də tətbiq etməyə çalışırlar. Tələbələr proseslərə cəlb olunmaqla bacarıqlarını inkişaf etdirir və iş imkanları əldə edirlər. Əlavə olaraq, akkreditasiya öncəsi hazırlıq prosesi, sahə səfəri və Yekun Hesabatın hazırlanması dönəmində AK-nin üzvləri arasında ünsiyyəti intensivləşdirir. Qəbul olunmuş standartlara uyğun olaraq, təhsil müəssisəsinin fəaliyyətini qiymətləndirmək və müəssisədə keyfiyyət təminatı mədəniyyətini formalaşdırmaq akkreditasiya qiymətləndirilməsinin əsas məqsədlərindən biri kimi AK-nin təşkili və fəaliyyətindən asılıdır.
Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Akkreditasiya və lisenziya şöbəsinin aparıcı məsləhətçisi Xanım Quliyeva 9-13 dekabr 2024-cü il tarixlərində Ali Təhsil üzrə Sloveniya Keyfiyyət Təminatı Agentliyində (SQAA) heyətin təcrübə mübadiləsi proqramında iştirak edib. Sözügedən proqramda SQAA fəaliyyəti barədə ümumi məlumat verilmiş, Sloveniya ATM-lərində akkreditasiya prosesinin təşkili, AK-nin formalaşdırılması və ENQA-ya tamhüquqlu üzv olmaq istəyən agentliklərin birbirlərindən fərqləndirən amillərin müəyyən edilməsi mövzularında müzakirələr aparılıb. Eyni zamanda, eskpertlərin təlimi, simulyasiyaların təşkili ilə bağlı TKTA təcrübəsi həmkarların diqqətinə çatdırılmış, TKTA-nın ENQA-ya tamhüquqlu üzv olma istiqamətində əməkdaşlarının peşəkar inkişafı məqsədilə göstərdiyi bu təşəbbüs təqdirəlayiq və məqsədyönlü addım kimi qiymətləndirilib.

**Xanım Quliyeva**
Akkreditasiya və lisenziya şöbəsinin aparıcı məsləhətçisi

## Daxili keyfiyyət təminatı sistemi üzrə beynəlxalq yanaşmaların araşdırılmasında təcrübə mübadiləsinin əhəmiyyəti



Ölkəmizin ali təhsil sistemində daxili və xarici keyfiyyət təminatının müasir tələblərə uyğun formalaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 9-13 dekabr 2024-cü il tarixlərində Akkreditasiya və lisenziya şöbəsinin böyük məsləhətçisi Nigar Əsgərovanın Rumıniyanın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (ARACIS) heyət mübadiləsi çərçivəsində səfəri baş tutmuşdur. Səfərin əsas məqsədi ARACIS-in missiyası və fəaliyyət istiqamətlərini, akkreditasiya prosesindən kənar yerli ATM-lərinə göstərdikləri metodoloji dəstəyi, daxili keyfiyyət təminatı sisteminin qurulması, keyfiyyət təminatı sisteminin rəqəmsallaşdırılması, ARACIS-in xarici keyfiyyət reysterinin formalaşdırılması, tələbə qiymətləndirilməsi üzrə milli reysterin fəaliyyəti mövzularında agentliyin təcrübəsi öyrənilib.

TKTA-nın ekspert bazasının formalaşması mexanizmi, simulasiyaların təşkili, akkreditasiya prosesinin sahə baxışında tələbə və akademik heyətlə keçirilən operativ sorğular və sorğuların nəticələrinin Yekun Hesabatda əks olunması, TKTA-nın daxili idarəetmə sisteminin sənədləşmə işinin elektron formada həyata keçirilərək rəqəmsallaşma istiqamətində atılan əsaslı addım, eləcə də, TKTA-da dayanıqlı və davamlı inkişafı təmin etmək üçün əməkdaşların peşəkar inkişaf istiqamətində ENQA-ya tamhüquqlu üzv ölkələrin keyfiyyət təminatı agentliklərində keçdikləri mübadilə səfərləri ARACIS-in struktur bölmə rəhbərlərinin marağına səbəb olmuş və atılan addımları təqdirəlayiq hesab ediblər.

**Nigar Əsgərova**
Akkreditasiya və lisenziya şöbəsinin böyük məsləhətçisi

# İnstitusional akkreditasiya qiymətləndirilməsi ilə əlaqədar ekspert müşahidəsi



Texnika elmləri doktoru, professor
Sübhan Namazov

Azərbaycan Texniki Universitetinin
Elm və innovasiyalar üzrə prorektoru

Akkreditasiya prosesi elə bir prosesdir ki, o bilavasitə akkreditasiyanın başlanması dövründə deyil, ATM-nin bütün fəaliyyəti dövründə həyata keçirilməlidir. Bəzi ATM-lər yalnız bir sıra müvafiq sənədləri hazırlamaqla universitetdə hər şeyin qaydasında olduğunu düşünürlər. Əslində həmin fəaliyyətlərin universitetin həyatında nə ilə yadda qaldığı araşdırılarkən müəyyən olur ki, bu fəaliyyətlər yalnız kağız üzərində öz əksini tapır. Qiymətləndirmə metodologiyasına əsasən, mövcud faktlardan daha çox proses və mexanizmlərin mövcudluğuna, inkişafa nə qədər töhfə vermə amillərinə yönəlməlidir. Bir qədər ümumi yanaşsaq, əslində ATM-lərin iki əsas vəzifəsi vardır: birincisi keyfiyyətli kadr hazırlığı, ikincisi, obrazlı desək, yüksək elmi texniki informasiya “istehsalı”. Yəni, ATM-lər elmi məqalə, müxtəlif işləmələr, texnologiyalar, təlim texnologiyaları, prototiplər və digər əqli mülkiyyət məhsulları və s. yaratmalıdırlar. Yerdə qalan bütün fəaliyyətlər bu iki əsas vəzifənin yerinə yetirilməsinə xidmət etməlidir. ATM-lərin institusional akkreditasiyası üzrə yeni qiymətləndirmə meyarları kifayət qədər əhatəlidir və meyarlar ümumilikdə beynəlxalq akkreditasiya təşkilatlarının tətbiq etdiyi meyarlara uyğun formalaşdırılıb. Bu meyar və indikatorların hazırlanması zamanı çoxsaylı müzakirələrimiz oldu.

Nəhayət qeyd edilən sənəddə mövcud meyar və indikatorlar təsbit olundu. Hər bir ali məktəb 7 istiqamət, 30 meyar və 271 indikator üzrə qiymətləndirilir. Hər bir indikator üzrə ali məktəblərin özünütəhlil və qiymətləndirmə aparması özü-özlüyündə onların həm bu indikatorlar üzrə mövcud vəziyyətlərini təhlil etməyə imkan verir, həm də lazımi istiqamətlər üzrə universitetin güclü, zəif tərəflərini müəyyən etməyə imkan yaradır. Meyarlar və müvafiq indikatorlar üzrə onların nə qədər ölçüləbilən olmasına münasibətdə deyə bilərəm ki, bunun üçün iki istiqamətli yanaşma ola bilər. Birincisi, hər hansı fəaliyyət istiqaməti üzrə lazımi faktaloji komponentlərin mövcudluğu, ikincisi isə uyğun meyar və ya indikator üzrə fəaliyyətlərin, mexanizmlərin bərqərar olub-olmamasını vurğulamaq istərdim. Burada bir məsələyə diqqət çəkmək istəyirəm. Belə ki, əsas məsələ istər özünütəhlil prosesi zamanı, istərsə də akkreditasiya prosesi zamanı ekspertlərin mövcud indikator və meyarlar üzrə peşəkar qiymətləndirməni aparmalarından çox şey asılıdır. Akkreditasiya komissiyasının üzvləri universitetlərin təqdim etdikləri Özünütəhlil Hesabatları və müşayiətedici sənədləri təhlil etdikdən sonra müvafiq suallarla ATM-in uyğun heyətləri ilə görüşlər keçirir və müsahibələr və ya yerində baxış keçirirlər, lazımi təhlillər aparırlar, nəticə olaraq Yekun Hesabat yazırlar. Özünütəhlil Hesabatının hazırlanması Akkreditasiya prosesinin ən vacib mərhələsi hesab edilir. Əslində Akkreditasiya prosesi özünütəhlil hesabatı ilə sahə baxışı zamanı aşkar olunan fəaliyyətlərin müqayisəli təhlilinə uyğun həyata keçirilir. Bir sıra ATM-lər belə hesab edirlər ki, Özünütəhlil Hesabatları nə qədər müsbət xarakterli yazılarsa, daha çox faydalıdır. Əksinə bu hal ATM-in fəaliyyətini düzgün qiymətləndirməyə mane olur, nəticədə ayrı-ayrı indikatorlar üzrə balların formalaşmasına əngəl törədir. Özünütəhlil Hesabatları nə qədər peşəkar və real hazırlanarsa, akkreditasiya zamanı yekun hesabat daha dolğun və əhatəli ola bilər. Bu baxımdan hazırkı meyarlar kifayət qədər əhatəlidir və ölçüləbiləndir, deyə bilərik. Sözsüz ki, zaman etibarilə indikatorların konsolidasiya edilərək, birləşdirilməsi və bir qədər azaldılması da müzakirə mövzusu ola bilər. Mən həm əvvəlki dövrlərdə akkreditasiya komissiayalarının sədri və üzvü olmuşam, həm də yeni Akkreditasiya qaydaları dövründə. Müqayisə edərək indiki qaydaları daha proqressiv, daha ölçüləbilən, ali təhsil sistemi və ATM-lər üçün faydalı olduğunu hesab edirəm.

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

tktaeduaz